Ömür bizdən, biz ömürdən

Bütün mətləblərdən, fikirlərdən, düşüncələrdən əvvəl mübahisəsiz olacaq hökmümü, qənətimi elan edirəm. Bu ilin qürur mənbəyi olacaq, dostluq, qardaşlıq, milli birlik rəmzi olacaq iki qəhrəmanı var. Bu Azərbaycan Respublikasının prezidenti İlham Əliyevdir və Türkiyə Cümhuriyyətinin prezidenti Rəcəb Tayyib Ərdoğandır. Bu iki qəhrəmanın birliyi, qardaşlığı qədim türk əzəmətinin dirçəlişindən, doğuluşundan xəbər verir. Bəri başdan bu iki qəhrəmanın ilini təbrik etmək mənə inananların hamısının əvəzindən özümün haqqım bilirəm.

Türk əzəməti iki qəhrəmanın simasında görünür.

* * *

Ötən ilin bu günündə bizi gözləyən nəsnələrin heç birindən xəbərimiz yox idi. Əlbəttə, mən toplumdan danışıram, mən dünyanın gəldi-gedərini ancaq öz dünyası ilə ölçə biləcək toplumdan danışıram. Bu heç şübhəsiz böyük əksəriyyət idi. Biz hələ bilmirdik qarşıda bizi necə böyük Tanrı fəlakəti - pandemiya gözləyir. Biz hələ bilmirdik bircə saatlıq dərs ritminin pozulmasına görə ittiham edə biləcəyimiz təhsil müqəddəsliyinin necə dağıdıcı, necə öldürücü bir zamanı ilə qarşılaşacağıq.

Həqiqətən filosofların çox qədim zamanlardan bəri gələn hökmləri bir vaxt özünü bu qədər sərtliklə diktə edəcəkmiş; bəli, həyat bütün qanunlara düzəliş etmək hüququndadır.

...Qoy əvvəlcə pandemiya bəlası haqqında düşündüklərimi deyim: bir illik fəlakət təcrübəmiz var. Hələ də insanlar dərk etmirlər ki, insanlığın özü hansı bəla ilə üzləşib.

Pandemiya bəlası xalq arasında deyildiyi kimi "urvatsız ölüm" gətirib. Və artıq bu günəcən iki min sayından xeyli aşağı ölüm faktı ilə üz-üzəyik. Və hələ proses necə gedəcək bunu bir kimsə aydın proqnoz edə bilməz.

Bu gün Azərbaycan pandemiya ilə mübarizədə ən aktiv, ən fəal dünya ölkələri sırasındadır. İtkilərimiz bundan da az ola bilərdi.

Səhiyyə marifimiz qədərincə olsaydı... bu gün dərmanlar - əlbəttə, şərti məqbul bilinən dərmanlar apteklərdə normal, düzgün qiymətə satılsaydı, insanlar səhiyyənin normal qayğısı ilə təmin olunsaydı - əlbəttə, dövlət başçısının tələb etdiyi səviyyədə, hər kəsin pandemiya tələblərinə əməli münasibəti özünü doğrultsaydı, yəqin ki, itkilərimiz az olardı.

Və yəqin ki, şəxsən mənim özüm də sabaha inamımı itirməzdim. Deyilənə görə (burasını deyilənə görə özüm yazıram) indi çağırışlara münasibət son dərəcə ölgün bir hal alıb. Dərmanlar çox bahadır. Şəxsən mən yoluxsam ölümüm şəksizdir. Çünki prezident, dövlət başçısı hər bir cavabdeh şəxsin yanında dayanmaq iqtidarında deyil. Hər kəs öz vicdanı ilə gözəgörünməz düşmənin savaşında öz yerini görməlidir.

* * *

...Və bu il bizim üçün "Qarabağ ili" oldu. Pandemiya nə qədər qara qorxu gətirsə də, ruhumuzu öldürə bilmədi.

Ali Baş Komandanın bircə əmri bəs elədi ki, Azərbaycan ordusu zəfər yürüşünə başlasın.

Azərbaycan ordusunun gücü, qüdrəti ona dəstək verən və ən başlıcası Ali Baş Komandana öz birliyi ilə dayaq olan xalqdan gələn istəklə bağlı idi.

Xalq qələbə istəyirdi, xalq həqiqət uğrunda döyüş istəyirdi. Və ən başlıcası xalq güvəndiyi Ali Baş Komandanı savaşın önündə görmək istəyirdi.

...Mən müharibələr tarixini kifayət qədər oxumuş adamam. Hətta, müharibələr zamanı baş verən gözlənilməzliklərdə vədlərin, inamların, inadların necə dağılmağından da kifayət qədər xəbərdaram.

Ali Baş Komandan İlham Əliyev müharibənin ilk günündən hər anın həqiqətini öz xalqı ilə bölüşdü. Və bu yerdə bir həqiqət də mənim karıma gəlir: Heydər Əliyev Azərbaycan siyasi böhranının ən kəskin zamanında heç bir ordusu, köməyi olmadan yalnız öz nitqi, açıq danışmağı ilə xalqı səfərbər elədi. Mən Ali Baş Komandan İlham Əliyevin xalqla açıq, sağlam, ünsiyyətli mövqeyində həmin məktəbin, həmin yolun davamını gördüm.

Qeyri-adi bir vəziyyət yaranmışdı. Həm ordu döyüşürdü, həm Ali Baş Komandan döyüşürdü. Ali Baş Komandan ordusu ilə döyüşdüyü qədər prezident də öz intellekti, mənəvi hazırlığı, qətiyyəti, siyasi iradəsi ilə dünyanın fikir müstəvisində döyüşə çıxmışdı.

(Davamı 16-cı səhifədə)

Kredo 2020.- 29 dekabr.- S.1;16.

Ömür bizdən, biz ömürdən

(Əvvəli 1-ci səhifədə)

Çox təəssüf edirəm bu günə qədər prezident İlham Əliyevin və Ali Baş Komandan İlham Əliyevin 44 günlük müharibə dövründəki müsahibələri hər bir ailəyə çatacaq tirajda çap olunub pulsuz yayılmayıb. Çünki fikir döyüşünün cəngaveri kimi İlham Əliyev sübut elədi ki, o, öz xalqına layiqdir. Və elə bu səbəbdən də xalqı da onu bütün varlığı ilə dəstəkləyir. Onun dəmir yumruğunun gücünü təmin edir.

...2020-ci il belə başa çatır: pandemiyanın tüğyanı və zəfərin sonsuz sevincləri.

Böyük həqiqət indi öz mənasına daha çox yaxındır: Qarabağ bizimdir!

Etirazçılara deyirəm: imkan verin dumanlar dağılsın... Dumanlar dağılanda dağlar daha aydın görünür. İstəklərtimizin axıracan çiçəklənməyi üçün də isti, ilıq fəsil gərəkdir.

Həqiqətlər zamanında daha aydın görünür.

Şuşa var, Kəlbəcər var, Laçın var, Xocalı var, Xocavənd var... və bütün Qarabağ var.

Bəlkə də, kimlərsə bizim Qarabağ müharibəsindəki qələbəmizin sayəsində son ümidlərini də itirdilər; hakimiyyətə gəlmək ümidlərini.

Bu gün Azərbaycan bütün varlığı ilə Azərbaycana bağlı olan siyasi rəhbərin - Ali Baş Komandanın yanındadır.

... Mən indi daha çox inanıram Cəbrayıldakı evimə gedə biləcəyimə. Əlbəttə, Tanrının ixtiyarında olan pandemiyadan xilas ola bilsəm.

Kaş bizim Səhiyyə Nazirliyimiz müharibə qanunlarımızın həm vətənpərvərlik, həm də məsuliyyət hissi ilə bizi başa düşəydi.

Nəvələrim cəbhədədir... indi mənim ən böyük arzum onlarla görüşməkdir. Əgər pandemiya bəlası məni yaxalasa dərman ala bilməməyimin günahı mənlik deyil.

...Bir daha inanıram Azərbaycan qüdrətli ölkədir.

Mən Ali Baş Komandanın yanındayam. Çünki nəvələrim də ona inanır. Bu o deməkdir ki, Azərbaycanın gələcəyi də ona inanır.

Ömür bizdən, biz ömürdən... bu da bir savaşdır.

Qədim filosoflar deyirdilər ki, özünə qalib gələnlər zamanın qaliblərdir.

İliniz mübarək olsun...

2020-ci il bizim zəfər ilimizdir. Tariximizin zəfər yaddaşıdır.

...Hava proqnozu göstərir ki, yeni il günəşli olacaq.

Əli Rza XƏLƏFLİ
28.12.2020